# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 9-cu səhifədə).

Rayon icra hakimiyyəti başçısının 2012-ci ildə 42 səyyar görüş-qəbulu keçirilmişdir. Həmin görüş-qəbullarda 6.427 nəfər iştirak etmişdir. İştirakçılardan 348 nəfər müxtəlif səpkili təklif və tələblər irəli sürmüşdür. İrəli sürülən təkliflərin 329-u həll edilmiş, 19 tələbin icrası barədə isə respublikanın aidiyyəti təşkilatları qarşısında məsələ qaldırılmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

Nazirlər Kabinetinin iclasında qarşıda duran vəzifələrdən danışan cənab İlham Əliyev 2013-cü ildə əvvəlki illərdə olduğu kimi bütün proqram və layihələrin bu il də uğurla icra olunacağına əminliyini bildirib. O qeyd edib ki, investisiya layihələrinin proqramlarında elektrik enerjisi və təbii qazla təchizat, həmçinin içməli su və kanalizasiya sistemlərinin yaradılması, magistral yolların yenidən qurulması və yeni yolların inşaası, meliorasiya tədbirlənin genişləndirilməsi əsas yer tutacaq. Ölkə başçısı deyib ki, bu ilin dövlət büdcəsində sosial sahəyə ayrılan vəsaitin də həcmi artıb. 2013-cü ildə əmanətlərin konpensasiyası prosesi başa çatmış, 70-dən çox tibb müəssisəsinin inşa edilməsi və təmir olunması, bütün qəzalı vəziyyətdə olan məktəblərin təmiri, maaşların və pensiyaların artırılması nəzərdə tutulur.

Cənab prezident qarşıda duran vəzifələrdən birinin də makroiqtisadi sabitliyin qorunmasından və inflyasiyanın birrəqəmli səviyyədə saxlanılmasından ibarət olduğunu vurğulayıb.

Regionların inkişafına dair qəbul olunmuş ikinci dövlət proqramının uğurla icra olunduğunu deyən dövlət başçısı investisiyaların böyük hissəsinin regionlara yönəldiyini bildirib. Sonda 2013-cü il “İnformasiya kommunikasiya texnologiyalar ili” elan edilib.

**Hörmətli toplantı iştirakçıları!**

Fevralın 12-də cənab İlham Əliyevin sədrliyi ilə “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.

> **Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır.**
>
> **İlham Əliyev,**
> **Azərbaycan Respublikasının Prezidenti.**



*Qəbələnin magistral və daxili yolları sürətlə abadlaşır.*
*Foto S. Umuyevindir.*

Ölkə başçısı regionların sosial-iqtisadi inkişafını müəyyənləşdirən Dövlət Proqramının Azərbaycanın uğurlu inkişafı üçün cəsarətli, düşünülmüş və vacib iqtisadi alət olduğunu, eyni zamanda bunun iqtisadiyyatımızın hərtərəfli inkişafına təkan verdiyini vurğulamışdır.

Qeyd olunmuşdur ki, bu il ikinci Dövlət Proqramı başa çatdırıldıqdan sonra yeni proqramlar ortaya qoyulacaq, bölgələrdə gedən böyük quruculuq işlərinin, infrastruktur layihələrinin və sahibkarlıq fəaliyyətinin gücləndirilməsi və sürətli inkişafı təmin ediləcəkdir.

Bundan sonrakı illərdə iqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin tam təmin edilməsi, sənaye potensialının gücləndirilməsi, ixrac potensialının artırılması, biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdiriləcəyi bildirilmişdir.

Bütün bunlarla yanaşı cənab Prezident bu günki inkişafımızı əngəlləmək meyilləri yaradan, ictimai sabitliyi pozmaq cəhdlərinə səbəb olan cəmiyyətdəki bəzi neqativ halları geniş təhlil etmişdir. Dövlət başçısı konfransda xüsusi vurğulamışdır ki, Azərbaycan vətəndaşına dövlət qurumları tərəfindən hər yerdə hörmət olunmalı, onlarla normal rəftar edilməlidir. Bəzi hallarda məmurlar vətəndaşlara yuxarıdan aşağı baxır, onları saymırlar. Hər bir dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirməli, insanlara qulluq etməli və təvazökar olmalıdır.

Cənab İlham Əliyev korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi, belə hallara qarşı bütün orqanların, xüsusilə hüquq-mühafizə orqanlarının daha ciddi mübarizə aparması barədə göstəriş vermişdir. Ölkənin dayanıqlı inkişafını təmin etmək üçün bütün qurumların, vəzifəli şəxslərin öz məsuliyyətini dərk etməsi və Azərbaycanın inkişafı üçün daha səmərəli işləməsi prioritet vəzifə kimi qarşıya qoyulmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Hesabat ilində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə sizə qısa məlumat verdim.

2013-cü ildə qarşımızda daha mühüm vəzifələr durur. Bu işlərin bir qismi “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda (2009-2013-cü illər) öz əksini tapmışdır. Ancaq görəcəyimiz işlərin miqyası olduqca böyükdür. Qeyd etmək lazımdır ki, ölkə başçısı cənab İlham Əliyevin inkişaf siyasəti özündə uzunmüddətli və çoxşaxəli perspektiv hədəfləri ehtiva edir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının icrasına dair dövlət rəhbərinin imzaladığı Sərəncam, bütövlükdə, Azərbaycanın uzunmüddətli inkişafı üçün strateji vəzifələr müəyyən edildiyini göstərir.

2013-cü il həm də siyasi baxımdan xalqımız üçün mühüm əhəmiyyət kəsb edən əlamətdar bir tarixdir. Çünki bu il ölkəmizdə prezident seçkiləri keçiriləcəkdir. Biz azad və demokratik ölkədə yaşayırıq. Ölkəmizdə hər hansı bir qadağa yoxdur və internet azadlığı yüksək səviyyədə təmin edilmişdir.

İnsanlar qanunla müəyyən olunmuş qaydada istənilən siyasi fəaliyyətlə məşğul olurlar. Belə olan şəraitdə bizim üçün növbəti prezident seçkilərində kimin rəqib namizəd olması əsas məsələ deyil, əsas məsələ bizim namizədimizin qələbə çalmasıdır. Bu qələbənin qazanılması isə hər bir Azərbaycan vətəndaşının, hər bir qəbələlinin üzərinə böyük vəzifələr və məsuliyyət hissi qoyur.

Məruzəmin sonunda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar günlər və tarixi hadisələrlə zəngin olan 2013-cü ildə də yeni uğurların əldə edilməsi sahəsində fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

Mən çıxışımı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sözləri ilə bitirmək istəyirəm: «Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycanın vətəndaşı, onun rifahı dayanır».

**Hörmətli yığıncaq iştirakçıları!**

İcazə verin sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edim ki, biz əvvəlki illərdə olduğu kimi, vətənimizə, dövlətimizə, xalqımıza sədaqətlə xidmət edəcək, astanasında olduğumuz 2013-cü ili də yüksək uğurlarla başa vuracağıq.